8 oktyabr 2015-ci il tarixində Yaponiya hökümətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri cənab Tsuquo Takahaşinin və Şəki rayon İcra Hakimiyyəti Başçısı cənab Elxan Usubovun iştirakı ilə Şəki Şəhər İcra Hakmiyyətinin binasında aşağıdakı layihə üzrə İmzalanma Mərasimi keçirilmişdir.

## "Şəkinin Çayqaraqoyunlu kəndində su təchizatı sisteminin tikintisi" layihəsi

Layihənin əsas məramı Çayqaraqoyunlu kəndində su sistemini inşa edərək kənd sakinlərinin suya olan tələbatını ödəməkdir. Bu layihə üçün Yaponiya hökumətinin ayırdığı qrant yardımının ümumi məbləği **89,995 ABŞ dolları** təşkil edir.

**İmzalanma mərasimi**



**Səfir Azərbaycan dilində nitq söylədi**



**Kənd sakinləri çaydan axan sudan istifadə edirlər**



**İcra olunacaq layihə nəticəsində qadınlar əziyyətli su daşınması işindən azad olacaqlar**

